


**Müqayisəli Ədəbiyyatşünaslıq**

**Comparative Literature Studies**

ISSN : 2663-4414 E-ISSN : 2709-0762
Nəşr edən/Publisher : AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

Cild/Vol, 2, Sayı/No. 1, 37-56, 2026
DOI: https://doi.org/10.59849/2663-4414.2026.1.37

Araşdırma Məqaləsi / Research Article


# Nəvizadə Ətayinin Poeziyasında Dövrünün Osmanlı Sultanları: Poetik Münasibətin Müqayisəli Təhlili

*The Ottoman Sultans of the Period in Navizade Atayi`s Poetry: A Comparative Analysis of Poetic Attitudes*


**Lale Heydərova**
**E-mail:**
lalehidaytqizi@gmail.com
**Tel**: +994504970071
**ORCİD**:
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**



Məqalənin gəldiyi tarix/Received: 13.04.2026
Qəbul tarixi/Accepted: 19.05.2026
Nəşr tarixi/ Available Online: 13.07.2026



**Xülasə:** XVII əsr Osmanlı imperiyası siyasi qeyri-sabitlik, saray çevrilişləri və dərin ictimai-sosial böhranlarla səciyyələnən ən mürəkkəb tarixi mərhələlərdən biri hesab olunur. Məhz belə bir ictimai-siyasi mühitdə fəaliyyət göstərən Nəvizadə Ətayi Osmanlı klassik ədəbiyyatında "Xəmsə" ənənəsini davam etdirən son böyük məsnəvi şairlərindən biri kimi tanınır. Onun həyatı və yaradıcılığı Osmanlı imperiyasının siyasi idarəetmə sistemində ciddi böhranların yaşandığı, ictimai-sosial münasibətlərin kəskin şəkildə dəyişdiyi və mənəvi dəyərlərin aşınmağa başladığı mürəkkəb tarixi mərhələyə təsadüf edir. Belə bir çətin və keşməkeşli dövrün yetirməsi olan Ətayi qarşılaşdığı tarixi hadisələri, müşahidə etdiyi sosial ziddiyyətləri və mənəvi böhranları poetik təxəyyül süzgəcindən keçirərək bədii ümumiləşdirmə səviyyəsinə yüksəltmişdir.

Məqalənin əsas məqsədi Nəvizadə Ətayinin yaşadığı tarixi-mədəni mühit, XVII əsr Osmanlı imperiyasının siyasi strukturu və idarəetmə sistemi, xüsusilə tez-tez baş verən hakimiyyət dəyişikliklərinin ədəbi və intellektual mühitə təsiri geniş şəkildə təhlil edilir. Şairin əsərləri həmin dövrün ictimai-siyasi reallıqlarını əks etdirməsi, dövlət idarəçiliyindəki intizamsızlıqları və mənəvi dəyərlər sistemində baş verən aşınmanı əks etdirməsi baxımından mühüm tarixi və mədəni mənbə kimi qiymətləndirilir. Ətayinin bədii irsi yalnız estetik baxımdan deyil, eyni zamanda dövrün sosial-mənəvi mənzərəsini aydınlaşdırmaq baxımından da xüsusi elmi əhəmiyyət daşıyır.

Nəticə etibarilə, Nəvizadə Ətayinin müxtəlif hökmdarlara münasibətində müşahidə olunan fərqlər onun poetik irsində yalnız ədəbi ənənənin davamı kimi deyil, həm də dövrün siyasi və ictimai kontekstinin əks-sədası kimi qiymətləndirilə bilər. Şairin mədhiyyə və mərsiyələrində hökmdar obrazlarının müqayisəli şəkildə təqdim olunması onun saray poeziyası çərçivəsində fərqli siyasi mövqeləri və tarixi hadisələri poetik dildə ifadə etmə bacarığını ortaya qoyur.



**Açar sözlər:** *Nəvizadə Ətayi, XVII əsr, Osmanlı imperiyası, ədəbi mühit, müqayisəli*



**Abstract:** Navizade Atayi engaged in an activity born in the 17th century, a period characterized by political instability and profound social turmoil, is regarded as one of the last major masnavi poets who continued the "Khamsa" tradition within Ottoman classical literature. His life and literary activity coincide with a complex historical phase marked by severe crises in the political administrative system of the Ottoman Empire, significant transformations in socio-cultural relations, and the gradual erosion of moral values. As a poet of such a turbulent era, Atayi transformed the historical events he witnessed, the social contradictions he observed, and the moral crises of his time into a refined poetic synthesis through the lens of artistic imagination.

This article provides a comprehensive analysis of Navizada Atayi's historical and cultural milieu, the political structure and administrative system of the 17th-century Ottoman Empire, and particularly the impact of frequent changes in rulership on the literary and intellectual environment. His works are evaluated as important historical and cultural sources in terms of reflecting the socio-political realities of the period, administrative disorder within the state system, and the deterioration of moral values. Atayi's literary heritage is thus significant not only from an aesthetic perspective but also as a key source for understanding the socio-moral landscape of his age.

In conclusion, the differing attitudes observed in Navizada Atayi's approach to various rulers can be interpreted not merely as a continuation of literary convention, but also as a reflection of the political and social context of his time. The comparative representation of ruler figures in his panegyrics and elegies demonstrates his ability to articulate diverse political positions and historical realities within the framework of court poetry through a refined poetic language.



**Keywords:** *Navizada Atayi, 17th century, Ottoman Empire, literary environment, comparative analysis*

**Cite as(APA 7):** Heydərova, L. (2026). Nəvizadə Ətayinin Poeziyasında Dövrünün Osmanlı Sultanları: Poetik Münasibətin Müqayisəli Təhlili. *Müqayisəli ədəbiyyatşünaslıq*, *2*, 37-56. https://doi.org/10.59849/2663-4414.2026.1.37

## Giriş / Introduction

XVII əsr ümumtürk tarixində tənəzzül dövrü kimi xarakterizə olunur. XVI əsrin sonlarından etibarən davam edən müharibələr, daxili çəkişmələr və siyasi qeyri-sabitlik nəticəsində Orta Asiya və Osmanlı türkləri arasında diplomatik birliyin möhkəmlənməsi mümkün olmamışdır. Bu şəraitdə elm, ədəbiyyat və incəsənətin çiçəklənməsi üçün əvvəlki əsrlərdə mövcud olan dayanıqlılıq və himayədarlıq mühiti tədricən zəifləmişdir. Bununla belə, həmin dövrü yalnız tənəzzül prosesi ilə deyil, eyni zamanda ictimai, iqtisadi və mədəni strukturların yenidən formalaşması ilə də səciyyələnir (Köprülü, 1980, ss. 377-378).

Osmanlı imperiyası zahirən öz qüdrətini qorusa da, daxili idarəçilik sistemində ciddi problemlər müşahidə olunurdu. Təcrübəsiz və siyasi baxımdan zəif sultanların taxta çıxması, dövlət idarəçilində saray intriqalarının artması, yüksək təbəqənin (bəylər, vəzirlər və üləmalar) səlahiyyətlərinin məhdudlaşdırılması dövlətin inzibati möhkəmliyini sarsıtmışdı. Eyni zamanda, devşirmə sistemi, yəni fəth edilmiş ərazilərdən seçilən istedadlı xristian mənşəli uşaqların xüsusi təhsil alaraq dövlətin idarə və hərb strukturlarına cəlb edilməsi əvvəlki funksionallığını itirmiş və korrupsiyaya yönəlmələr ilə əvəzlənmişdi.

Həmin dövrdə baş verən Cəlali üsyanları imperiyanın sosial davamlılığını ciddi şəkildə pozmuşdur. Anadolu bölgəsində kəndlilərin ağır vergi yükü və iqtisadi çətinliklər səbəbindən baş qaldıran bu üsyanları uzunmüddətli anarxiya şəraiti yaratmış, nəticədə mərkəzi hakimiyyətin səlahiyyəti bölgələrdə zəifləyərək yerli feodalların mövqelərini gücləndirmişdi.

Eyni zamanda, Osmanlı iqtisadiyyatı da tənəzzülə uğramağa başlamışdı. Avropada baş verən texnoloji və kommersiya inqilabları Osmanlı ticarət yollarının strateji əhəmiyyətini azaltdı, nəticədə dövlətin maliyyə sistemi gümüşün dəyərsizləşməsi və inflyasiya səbəbindən ciddi şəkildə sarsıldı. Bu, əhalinin sosial təbəqələşməsini daha da dərinləşdirdi və orta sinifin zəifləməsinə gətirib çıxardı.

III Murad dövründən etibarən Qapıqulu ocaqlarına artıq devşirmə əsilli şəxslər deyil, kənardan gələn və bu sistemə sonradan daxil olan fərdlərin qəbul edildiyi müşahidə olunur (Uzunçarşılı, 2011, s. 274). Həmçinin bu dövrdən başlayaraq yeniçərilərin ailə qurması, uşaq sahibi olması və hərbi xidmətdən kənar müxtəlif peşələrə maraq göstərməsi kimi hallar geniş yayılmışdır. Belə meyillər Qapıqulu sisteminin ənənəvi nizam-intizamını sarsıtmış və ordunun strukturunda ciddi yanlışlıqlara səbəb olmuşdur. Bu proses III Muraddan sonrakı hökmdarların dövründə daha da dərinləşmiş, nəticədə Osmanlı hərbi idarəçiliyində sistemli böhran yaranmışdır.

Hökmdarların dövlət idarəçiliyində aciz qalmalarının əsas səbəblərindən biri şahzadələrin taxta çıxmazdan əvvəl idarəçilik təcrübəsi qazandıqları sancaqlara göndərilmə ənənəsinin ləğv edilməsi idi. XVI əsrin sonlarından etibarən bu praktika tədricən aradan qalxmış, onun yerini "qəfəs sistemi"

adlanan saraydaxili tərbiyə və təhsil üsulu almışdır. Bu dəyişiklik nəticəsində şahzadələr dövlət işlərinin real idarəçilik təcrübəsindən məhrum qalmış, yalnız nəzəri biliklərlə kifayətlənmişdilər.

Bütün bu böhranlı proseslər ictimai-mənəvi həyata da təsirsiz ötüşmədi. Dini qarşıdurmalar, müxtəlif təriqət və məzhəblər arasındakı fikir ayrılıqları cəmiyyətin mənəvi həyatında yeni gərginliklər doğurdu. Xüsusilə təsəvvüf təriqətləri – Qadiriyə, Nəqşbəndiyyə, Xəlvətiyyə və Cəlvətiyyə kimi sufi cərəyanları həm xalq arasında mənəvi dayaq rolunu oynayır, həm də dini düşüncənin yenidən formalaşmasında əhəmiyyətli funksiyalar yerinə yetirirdi.

Mədəni mühit baxımından bu əsr Osmanlı klassik ədəbiyyatının son parlaq mərhələlərindən birini təşkil edir. Saray mədəniyyətinin zəifləməsinə baxmayaraq, poeziyada sufi motivlər, fəlsəfi və irfani təhlillər daha da güclənmişdi. Şairlər bədii yaradıcılıqla mənəvi kamillik, eşqin metafizik mahiyyəti və insanın ruhani təkamülü kimi mövzulara üstünlük verirdilər. Bu cərəyanı Nizami Gəncəvi, Məhəmmədə Füzuli və Əbdürrəhman Cami kimi klassik şairlərin təsiri ilə formalaşmış ədəbi ənənənin davamı hesab etmək olar.

Bir sıra uğursuz hadisələrin ard-arda baş verməsi ədəbiyyata ciddi təsir göstərmişdir. Xüsusilə XVII əsrin birinci yarısında ədəbiyyat ötən əsrdəki kimi üstün səviyyəsini qoruyub saxlaya bilmişdi. XVII əsrdə divan sahibi şairlər xeyli saydadır. Yalnız İstanbul kitabxanalarında yüz əllidən artıq divan günümüzə qədər gəlib çatmışdır (Ansiklopedisi, 1983, s. 125).

## Əsas Hissə / Main Part

XVII əsrin görkəmli alim və şairlərindən biri olan Nəvizadə Ətayi öz dövrünün tanınmış intellektual şəxsiyyətlərindəndir. Əsl adı Ətaullah olan şair ədəbi mühitdə daha çox “Nəvizadə Ətayi” təxəllüsü ilə tanınmışdır.

Osmanlı imperiyasının durğunluq və tənəzzül mərhələsinə təsadüf edən Ətayi 1583-1635-ci illər arasında yaşamış və fəaliyyət göstərmişdir. Onun yaşadığı dövr siyasi baxımdan imperiyanın həm geniş əraziləri idarə etməyə çalışdığı, həm də daxili sabitliyin zəiflədiyi bir mərhələ kimi müşahidə olunur. Qısa müddət ərzində sərhədləri Vyanadan Krıma, Qafqazdan Bağdada və Misirə qədər uzanan Osmanlı dövləti artıq bu torpaqlar üzərindəki inzibati və iqtisadi nəzarəti itirməyə başlamışdı.

Bununla belə, həmin dövrdə imperiyanın fikri və ədəbi həyatı nisbətən sabit qalmış, hətta bəzi mərkəzlərdə inkişafını davam etdirmişdir. XVII əsr Osmanlı ədəbiyyatı klassik türk poetikasının zəngin ənənələrini qoruyaraq, həm dini-irfani, həm də fəlsəfi mövzuların dərinləşməsi ilə seçilir. Bu əsrdə imperiyanın müxtəlif bölgələrində türkcə yazan çoxsaylı şair və alimlər yetişmiş və ədəbi fəaliyyət mədəni dirçəlişin mühüm göstəricisinə çevrilmişdir.

Təxminən yarım əsrlik ömür sürmüş Nəvizadə Ətayi həyatı boyunca yeddi Osmanlı sultanlığına şahidlik etmiş, lakin onlara eyni ölçüdə vahid və sabit münasibət nümayiş etdirməmişdir. Dövrün ictimai-siyasi hadisələrini, mədəni tendensiyalarını və mənəvi istəklərini əsərlərində əks etdirmişdir.

1. 1574-1595 III Murad
2. 1595-1603 III Məhmət
3. 1603-1617 I Əhməd
4. 1617-1618 I Mustafa
5. 1618-1622 II Osman
6. 1622-1623 I Mustafa (2-ci dəfə taxta çıxır)
7. 1623-1640 IV Murad

**III MURAD**

Ətayinin doğulması və körpəlik illəri Osmanlı sultanı III Muradın (1574-1595) hakimiyyəti dövrünə rast gəlinir. Bu dövr Osmanlı tarixində siyasi yüksəlişin sona çatdığı və tədricən durğunluq mərhələsinin başlandığı zaman kimi xarakterizə olunur.

III Murad təxminən iyirmi il hakimiyyətdə olmuşdur. Lakin bu uzunmüddətli idarəçilik dövründə sultan şəxsən hərbi yürüşlərdə iştirak etməmiş, siyasi qərarların icrası əsasən vəzirlərin və saray çevrəsinin nəzarətində həyata keçirilmişdir. Onun hakimiyyəti illərində imperiya həm Şərqdə, həm də Qərbdə genişmiqyaslı müharibələr aparırdı. Bu müharibələr dövlətin iqtisadi resurslarını tükəndirmiş, maliyyə sabitliyinə ciddi zərbə vurmuşdur.

Bununla belə, bu çətinliklər Osmanlı mədəni həyatının tamamilə zəifləməsinə səbəb olmamışdır. Buna baxmayaraq, III Murad dövrü saray qayğıkeşliyi ənənəsinin hələ də davam etdiyi bir mərhələ idi. Sultan və şahzadələr elmin və incəsənətin müxtəlif sahələrinə maraq göstərmiş, bəzi hallarda hamilik etdikləri sahələrdə öz yaradıcılıq qabiliyyətlərini də nümayiş etdirmişlər. Osmanlı sarayında yalnız hökmdarlar deyil eyni zamanda şahzadələrdə ədəbiyyatla məşğul olurdular (Kırkkılıç, 2015, s. 20).

III Murad və onun ailə üzvləri elmə və sənətə xüsusi diqqət yetirən hökmdarlar kimi tanınırdılar. Onlar dövlət idarəçiliyindən əlavə, bədii və elmi fəaliyyət sahələrində də maraq göstərmiş, himayələrində olan sənətkarların və alimlərin fəaliyyətinə dəstək vermişdilər. Bu himayəlik mühiti klassik Osmanlı ədəbiyyatının yeni mərhələsinə zəmin yaratmış, sufi mövzuların və fəlsəfi dərinliyin ədəbiyyatda genişlənməsinə səbəb olmuşdur.

Belə mədəni və intellektual atmosferdə formalaşan Nəvizadə Ətayi dövrünün ədəbi ənənələrini dərindən mənimsəmiş, həm dini-irfani mövzulara, həm də bəşəri-fəlsəfi anlayışlara müraciət edən sənətkar kimi yetişmişdir. Onun "Həft xan" məsnəvisində müşahidə edilən mənəvi simvolizm, rəqəmlərin metafizik yozumu və eşqin ilahi mahiyyəti kimi anlayışlar da məhz həmin Osmanlı sufi düşüncə mühitinin lirik əksidir.

III Murad Osmanlıda ən məlumatlı hökmdarlardan sayılır. O, zəmanəsinin tanınmış zaatları tərəfindən təhsil almışdır. "Muhibbi"ndən *(Qanuni Sultan Süleyman)* sonra ən çox qəzəl yazan hökmdardır. O, şeirlərini "Muradi" təxəllüsü ilə yazırdı. III Muradın divanında yer alan, sadə və səmimi dillə oxunan şeirlərin əksəriyyəti təsəvvüfi mahiyyət daşıyır (İsen, 2018, s. 8). Şeirdən əlavə saatsaz və miniatür sənətinə də xüsusi maraq göstərdiyi bildirilir (Kırkkılıç, 2015, s. 24).

**III MƏHMƏD**

Şairin yaşadığı dövrün mühüm tarixi simalarından biri də Osmanlı sultanı III Məhməd (1595-1602) olmuşdur. Onun dövründə imperiyanın daxili sabitliyi yeniçəri qiyamları, Cəlali üsyanları və uzunmüddətli müharibələrin yaratdığı iqtisadi çətinliklər nəticəsində ciddi şəkildə pozulmuşdur.

III Məhməd sancağa göndərilərək idarəçilik təcrübəsi qazanan son Osmanlı şahzadəsi olmuş və sələflərindən fərqli olaraq, müharibələrdə şəxsən iştirak etmişdir. O, Sultan Süleyman Qanunidən sonra ordunun başında döyüş meydanına çıxan ilk hökmdar kimi tarixə düşmüşdür. Bununla belə, onun hakimiyyəti illərində ölkə daxilindəki iğtişaşlar daha da artmış, yeniçərlərin bəxşiş tələbləri və ordudakı nizam-intizamın pozulması vəziyyəti ağırlaşdırmışdır.

Ətayi özünün "Nəfhətül-Əzhar" adlı əsərinin giriş hissəsində III Məhmədin Macarıstan səfəri və Xaçova döyüşü haqqında geniş məlumat verir (Kortantamer, 1993, s. 62). Bu fakt onun tarixilik duyumuna, siyasi hadisələrə bələdliyinə və sultan sarayı ilə ədəbi çevrələr arasındakı yaxın əlaqələrə işarə edir.

III Məhməd taxta çıxdıqdan sonra atası III Murad dövründə başlanmış Osmanlı-Avstriya müharibəsini davam etdirmək məcburiyyətində qalmış, eyni zamanda Anadolu Cəlali üsyanlarının şiddətlənməsi ilə üzləşmişdir. Bu hadisələr imperiyanın həm iqtisadi, həm də inzibati sisteminə dərin zərbə vurmuşdur.

Tarixi mənbələrdə və ədəbi qaynaqlarda III Məhmədin adı həm də "Şahzadələr qətli" hadisəsi ilə xatırlanır. Taxta çıxdıqdan sonra siyasi sabitliyi qorumaq və gələcək taxt iddialarının qarşısını almaq məqsədilə sultan on doqquz qardaşının edam edilməsinə fərman vermişdir. *III. Mehmed'in cülusunda öldürülen şehzade sayısı Osmanlı tarihindeki en yüksek sayıdır. Keza daha kundaktaki çocukların öldürülmüş olması hasebiyle de en trajik hadisedir* (Demirci, 2019, s. 155). Qardaşlarının

əksəriyyətinin körpə yaşda olması bu hadisəyə ictimai qəzəb və mənəvi etiraz doğurmuş, nəticədə III Məhməd xalq arasında mənfi obraz kimi xatırlanmışdır.

III Məhmədin hakimiyyəti dövründə Osmanlı dövləti, bəzi lokal hadisələr istisna olmaqla, ümumi hərbi və siyasi baxımdan ciddi məğlubiyyətlərlə üzləşməmişdir. Saray ətrafında gündəlik həyat, mərasimlər və şənliklər öz canlılığını qoruyur, ədəbi mühitdə klassik poeziya ənənələri davam etdirilirdi.

Sultan çətin və gərgin keçən hakimiyyətinin sonlarında 1603-cü ildə xəstəlik səbəbindən dünyasını dəyişmişdir.

Dövrün qaynaqlarında III Məhməd sadəlövh, sakit təbiətli və dindar bir hökmdar kimi təsvir edilir. Mənbələrdə onun asanlıqla təsir altına düşən, siyasi və hərbi çətinliklər qarşısında isə qərarlılığını qoruya bilməyən bir xarakterə sahib olduğu qeyd olunur (İnbaşı, 2022, s. 62). Bununla belə, sultanın intellektual biliklərə malik olduğu, elmi və ədəbi mühitə maraq göstərdiyi, özünün də şeirlər yazdığı məlumdur. III Məhməd şeirlərində "Adli" (Ədli) təxəllüsündən istifadə etmiş və bu xüsusiyyəti ilə həm də ədəbi zövq sahibi bir hökmdar kimi tanınmışdır (Kuzubaş, 2005, s. 239).

Nəvizadə Ətayinin atası Nəvi də III Məhmədin hakimiyyəti illərində Osmanlı ədəbiyyatının aparıcısı simalarından olmuşdur. O, dövrün öndər şairlərindən sayılmış və Bakı ilə birlikdə saray çevrəsində nüfuz sahibi ədiblərdən biri kimi tanınmışdır.

**I ƏHMƏD**

Osmanlı imperiyasının XVII əsrdəki ən mühüm hökmdarlarından olan I Əhməd (1603-1617) gənc yaşlarında, cəmi iyirmi yeddi yaşında mədə xəstəliyi səbəbindən vəfat etmişdir. Onun hakimiyyəti Osmanlı dövlətinin həm siyasi, həm də sosial baxımdan ən gərgin və keçid dövrlərindən biri kimi xarakterizə edilir.

Gənc yaşına baxmayaraq, I Əhməd xeyli islahat xarakterli tədbirlər həyata keçirmiş, dövlətin inzibati və mədəni sistemində yeniliklər aparmışdır. Onun təşəbbüsü ilə icra edilən memarlıq layihələri imperiyanın estetik zövqünü və şəhər mədəniyyətini əhəmiyyətli dərəcədə zənginləşdirmişdir. Bu baxımdan Sultan Əhməd məscidi onun adını əbədiləşdirən ən görkəmli memarlıq abidələrindən sayılır. Həm dini, həm də memarlıq baxımından bu tikili Osmanlı mədəniyyətinin zirvəsini təmsil edir və günümüzə qədər öz möhtəşəmliyi ilə diqqət cəlb etməkdədir.

I Əhməd eyni zamanda ədəbiyyata və sənətə maraq göstərən hökmdarlardan olmuşdur. O, "Bahti" (Bəxti) təxəllüsü ilə şeirlər yazmış və kiçik həcmli bir divan yaratmışdır (Kayaalp, 2019, s. 5). Bu fakt onun yalnız siyasi lider deyil, həm də bədii-estetik zövqə malik bir mədəniyyət mühafizəkarı olduğunu göstərir.

Tarixi mənbələrə görə, I Əhməd sancağa çıxmadan taxta oturan ilk Osmanlı sultanı hesab olunur. Onun dövründə sarayda və ictimai həyatda müəyyən sosial qaydalar dəyişmiş, ilk dəfə içki qadağası tətbiq edilmişdir. Həmçinin hökmdarın dövrü Osmanlıda tütün idxalına icazə verilən ilk mərhələ kimi tarixə düşmüşdür.

I Əhmədin hakimiyyəti dövründə həyata keçirdiyi ən mühüm dəyişikliklərdən biri sultanlıq varisliyi prinsipi ilə bağlı idi. Onun hakimiyyətinə qədər Osmanlı taxtına varislik müəyyən qaydaya əsaslanmırdı və bu vəziyyət tez-tez daxili saray çəkişmələrinə səbəb olurdu. I Əhmədin dövründən etibarən “Əkbər və Ərşad” prinsipi (yəni sülalə daxilində ən yaşlı və ən ağıllı şəxsin taxta çıxması) qanuniləşdirilmişdir. Bu sistemlə birlikdə digər şahzadələrin sarayın xüsusi hissəsində “qəfəs” rejimində saxlanılması ənənəsi də formalaşmışdır (Yaşaroğlu, 2013, s. 728). Məhz bu qanunun tətbiqi nəticəsində I Əhmədin vəfatından sonra onun qardaşı I Mustafa taxta çıxmışdır.

Belə bir mənəvi və estetik şəraitdə artıq yerli hadisələr, xalqın duyğuları və sosial motivləri klassik poeziyanın sərhədlərinə daxil olmağa başlamışdı. Nəticədə Osmanlı şeirində humanist və realist meyillər tədricən güclənmiş, Ətayinin yaradıcılığı da bu keçid mərhələsinin bədii nümunələrindən birinə çevrilmişdir.

Nəvizadə Ətayinin özünü dərk etməsi və yaradıcılığa başlaması I Əhmədin hakimiyyəti dövrünə təsadüf edir. Hökmdarların müxtəlif səbəblərdən erkən vəfat etməsi və tez-tez dəyişməsi imperiyanın siyasi sabitliyini pozmuş, həm daxili, həm də xarici qüvvələrin güclənməsinə şərait yaratmışdır. Bu vəziyyət cəmiyyətin mənəvi mühitində də qeyri-sabitlik yaratmış, Ətayinin yaşadığı dövrün ümumi atmosferinə təsir etmişdir.

Şairin yaradıcılığı ilə bağlı diqqətçəkən məqamlardan biri də odur ki, onun fəaliyyətindən sonra Osmanlı ədəbiyyatında “Xəmsə” tipli beş məsnəvidən ibarət poetik silsilə yaradan sənətkarların demək olar ki, yetişməməsi müşahidə olunur.

XVII əsrdə Osmanlı imperiyası qlobal ictimai-siyasi dəyişikliklərin təsirnə məruz qalmışdır. Dörd əsr boyunca Avropa və Asiyanın böyük bir hissəsinə hökmranlıq edən dövlət bu dövrdə həm daxili, həm də xarici ziddiyyətlər nəticəsində tənəzzül mərhələsinə qədəm qoymuşdur. Bu dövrdə klassik ənənələrin qorunması ilə yeniləşmə istiqamətləri arasında “ənənə və novatorluq” problemi ədəbi mühitin əsas müzakirə mövzularından birinə çevrilmişdir.

Nəvizadə Ətayi bu mürəkkəb tarixi reallıqlar fonunda yaradıcılığını davam etdirmiş, dövlətin çətin vəziyyətini əsərlərində literar dillə ifadə etmişdir. Onun əsərlərində sosial çöküş, mənəvi tənəzzül və ədalət axtarışı kimi motivlər mühüm yer tutur. Bu hadisələr arasında ilk dəfə bir sultanın təhqir olunaraq öldürülməsi, həmçinin Osmanlı şeyxülislamının boğdurularaq edam edilməsi kimi faktlar dövlətin dərin böhran içində olduğunu göstərən nümunələrdir.

Nəvizadə Ətayinin “Xəmsə”si onun yaşadığı dövrün ictimai, mənəvi və siyasi mənzərəsini bəzən birbaşa, bəzən isə dolayı bədii vasitələrlə əks etdirir. Əsərlərdə seçilmiş mövzuların mühüm bir hissəsi şairin müşahidə etdiyi gerçəkliklərdən, gündəlik həyat hadisələrindən və bəzən də onun şəxsi təcrübələrindən qaynaqlanır.

Onun əsərlərində istifadə olunan tarixi və əfsanəvi motivlər yalnız keçmişə estetik baxış deyil, həm də yaşadığı dövrün mənəvi və sosial problemlərinə işarədir. Ətayi klassik İslam ədəbiyyatının ənənəvi qəhrəmanlarını və hadisələrini yenidən yozaraq, onları öz çağının reallıqları ilə əlaqələndirir. Bu baxımdan onun “Xəmsə”si həm irfani-fəlsəfi, həm də ictimai-etik məzmun daşıyır.

Xüsusilə “Həft xan” məsnəvisi formal baxımdan nağıl üslubuna yaxın olsa da, onun dərin qatlarında mənəvi və didaktik məzmun gizlənir. Ətayi bu əsərdə təşbeh, simvol və məna çoxqalılığı vasitəsilə oxucuya həm əxlaqi, həm də sufizmə əsaslanan fəlsəfi dərslər verir. Əsərdəki simvollar insanın mənəvi yüksəlişini, nəfsin sınaqlarını və ilahi kamilliyə doğru səyahətini rəmzləndirir.

Bundan əlavə, Ətayinin yaradıcılığında nəqli və yerli motivlər də mühüm yer tutur. O, hadisələrin təsvirinə yalnız xronoloji baxımdan deyil, həm də mənəvi atmosfer və emosional dərinlik qatır.

**I MUSTAFA (1617-1618 // 1622-1623)**

Ətayinin yaşadığı dövrün digər hökmdarlarından biri də Osmanlı taxtında qısa müddət hakimiyyətdə olmuş I Mustafa idi. Onun adı Osmanlı sülaləsi tarixində xüsusi mərhələ ilə əlaqələndirilir. I Mustafa taxtdakı fəaliyyəti uzunmüddətli olmamış, bu səbəbdən siyasi və mədəni həyatın istiqamətinə ciddi təsir göstərə bilməmişdir. Bu vəziyyət, əsasən, onun şəxsi sağlamlıq problemləri və dövrün mürəkkəb siyasi reallıqları ilə izah olunur.

1617-ci ildə I Əhmədin vəfatından sonra Osmanlı sarayında “Əkbər və Ərşad” prinsipinə əsasən, mərhum sultanın qardaşı I Mustafa taxta çıxarıldı. Lakin onun gənc yaşları, psixoloji vəziyyəti və idarəçilik təcrübəsinin azlığı dövlətin mərkəzi aparatında səmərəli fəaliyyət göstərməsinə mane oldu. Daxili siyasi gərginliklər və xarici təzyiqlər şəraitində I Mustafanın birinci səltənəti təxmini üç ay davam etdi. 1618-ci ildə onun taxtdan endirilməsi və yerinə II Osmanın gətirilməsi ilə bu qısa mərhələ sona çatdı.

II Osmanın dövründə Osmanlı imperiyasında hərbi islahatlara cəhd göstərilməsi Yeniçəri təbəqəsinin narazılığına səbəb oldu. 1622-ci ildə baş verən Yeniçəri üsyanı nəticəsində II Osman öldürüldü və taxt yenidən I Mustafaya təhvil verildi (Kortantamer, 1993, s. 63). Lakin bu dəfə də sultanın ruhi vəziyyəti dövlət idarəçiliyinə ciddi maneələr yaratdı. Onun xəstəliyi artıq saray

daxilində gizlədilə bilmir, xalq arasında da yayılan şayiələr siyasi sabitliyi zəiflədirdi. Nəticədə, I Mustafa qısa müddət sonra ikinci dəfə taxtdan salındı və yerinə uşaq yaşda olan IV Murad gətirildi.

I Mustafa 1639-cu ildə vəfat etmişdir. Tarixi mənbələrdə onun ruhi vəziyyətinin qeyri-sabitliyi geniş şəkildə qeyd olunur. Bu səbəbdən nə dövlət idarəçiliyində, nə də dövrün intellektual və ədəbi mühitində I Mustafanın hər hansı bir rolu və ya təsiri müşahidə edilmir. Onun səltənət dövrləri daha çox Osmanlı siyasi tarixində böhranı idarəetmə zəifliyi və saray intriqalarının artdığı keçid mərhələsi kimi dəyərləndirilir. Ətayinin yaşadığı mühitin siyasi fonunda bu hadisələr ədəbi yaradıcılığın məzmununa dolayı şəkildə təsir etmişdir. Şairin I Mustafa dövrünə münasibəti də bu baxımdan xüsusilə diqqətəlayiqdir.

Tarixi mənbələrdə qeyd olunduğu kimi, Nəvizadə Ətayi I Mustafanın səltənətini açıq şəkildə dəstəkləməmiş, onun ruhi vəziyyətinin və idarəçilikdəki təsirsizliyinin dövlətin ümumi gedişatına mənfi təsir göstərdiyini düşünmüşdür. Bu mövqe, Ətayinin 1627-ci ildə tamamladığı "Söhbətül Əbkar" məsnəvisində dolayısı ilə ifadə olunmuşdur. Əsərin yazıldığı dövr IV Muradın yeni taxta çıxdığı, lakin yaşının az olması səbəbindən faktiki hakimiyyətin onun anası Kösəm Sultan tərəfindən həyata keçirildiyi mərhələyə təsadüf edir (Gül, 2006, s. 25).

Əsərin ideya və obrazlar sistemində I Mustafanın hakimiyyəti illərindəki xaos və siyasi böhran motivləri sezilir. Bu baxımdan "Söhbətül Əbkar" yalnız mənəvi-fəlsəfi məzmun daşıyan bir məsnəvi deyil, eyni zamanda dövrün sosial-siyasi vəziyyətinə ədəbi baxış kimi də qiymətləndirilə bilər. Ətayinin dövrə yönəlik tənqidi münasibəti, xüsusən də səmərəsiz idarəetmənin doğurduğu ictimai ədalətsizlikləri və mənəvi tənəzzülü vurğulaması, onun ictimai şüur daşıyıcısı kimi rolunu nümayiş etdirir.

Ətayi, məsnəvidə dolayısı ilə belə bir fikri önə çəkir ki, zülm edən, lakin idarəçilik qabiliyyəti olan hökmdar, dövlətin və xalqın rifahı baxımından idarəetmə qabiliyyəti olmayan "xəstə padşah"dan daha faydalıdır. Bu, şairin dövrün hakimiyyət boşluğuna və sarayda hökm sürən qeyri-sabitliyə yönəlmiş cəsarətli, lakin ehtiyatlı bir mövqeyidir. Əsərdə təsvir olunan "zalımlıq və ədalətsizlik" obrazları, real siyasi şəraitlə səsləşir və dövrün ictimai narazılıqlarını əks etdirir.

Ətayinin ölkənin ümumi mənzərəsini təsvir edən beytləri də bu baxımdan əhəmiyyətlidir. Şair dövlətin zəifləməsini, ədalətin itirilməsini və xalqın acınacaqlı vəziyyətini poetik dillə ifadə edərək, həm siyasi tənqid, həm də mənəvi xəbərdarlıq mahiyyətli bir ədəbi mövqe ortaya qoyur.

Ölkənin acınacaqlı vəziyyətini aşağıdakı beytlərində açıq-aşkar yazır:

**Oldı devletlüler etfal sıfat**

**Oglan oyuncağı oldı devlet**

**Dikkat olınsa eger devletıne**

**Zilleti degmez anun izzetine**.

(Yelten, 2017, s. 86)

*(dövlətlilər, yəni varlılar uşaq sifətində oğlan uşağının oyuncağı oldu. Dövlətə diqqət edilsə onun şanına, izzətinə zillət dəyməz)*

Ətayi əsərdə dolayısı ilə I Mustafanın ruhi vəziyyəti səbəbilə dövlətin idarəçiliyində yaranmış boşluğa işarə edir və bu boşluqdan faydalanan saray əyanlarını, paşaları və yüksək rütbəli məmurları kəskin tənqid atəşinə tutur.

O, dövləti oyuncaq kimi idarə edən, şəxsi mənfəətini dövlətin rifahından üstün tutan bu şəxsləri mənəvi baxımdan cəmiyyətin fəlakətinin əsas səbəbi kimi təqdim edir. Onun tənqidinin hədəfində sadəcə fərdlər deyil, həm də idarəçilik mexanizminin özündə formalaşmış rüşvət, ədalətsizlik və məsuliyyətsizlik sistemi dayanır. Şairin baxışına görə, bu sistem dövlətin əsas dayaqlarını zəiflədərək, mənəvi dəyərləri sarsıdır və xalqın rifahını təhlükə altına salır.

Ətayi üçün dövlətin zəifliyi təkcə siyasi böhran deyil, həm də əxlaqi tənəzzülün nəticəsidir. Xəstə və idarəetmə qabiliyyəti olmayan hökmdarın mövcudluğu rəsmi şəkildə legitim görünür, lakin faktiki hakimiyyət saray çevrəsinin əlinə keçmişdir. Bu mənzərəni şair bədii dillə ifadə edərək, dövlətin sanki "rüşvətin əlində alətə çevrildiyini" vurğulayır.

Ətayinin tənqidi mövqeyi həm siyasi şüurun, həm də ictimai əsalət hissinin ifadəsi kimi dəyərləndirilə bilər. O, dolayısı ilə göstərir ki, əgər hakimiyyət mənəvi prinsiplərə əsaslanmırsa, dövlətin süqutu qaçılmazdır.

**II OSMAN (1618-1622)**

Osmanlı tarixində "Gənc Osman" adı ilə tanınan II Osman (1604-1622) qısa, lakin hadisələrlə dolu səltənət dövrü ilə imperyanın siyasi həyatında mühüm iz buraxmış hökmdarlardandır. Onun dövrü, Osmanlı dövlətində dərin struktur böhranının yaşandığı və köhnəlmiş idarəçilik mexanizmlərinin dəyişdirilməsinə ehtiyac duyulan mərhələyə təsadüf edirdi. II Osman, taxta çıxar-çıxmaz, dövlətin zəifləməsinin əsas səbəblərindən birinin mərkəzi hakimiyyətin ordu və saray əyanları tərəfindən nəzarət altına alınması olduğunu dərk etmiş və bu vəziyyəti aradan qaldırmaq üçün islahatlar həyata keçirməyə çalışmışdır.

Gənc hökmdar, köhnə qurum və ənənələrin artıq dövrün tələblərinə cavab vermədiyini düşünərək, dövlətin gələcəyi naminə radikal dəyişikliklər zərurətini irəli sürmüşdü. Lakin bu

dəyişikliklərin tətbiqi nə xalq, nə də təcrübəsi və maliyyə dayaqları məhdud olan gənc sultan üçün asan məsələ deyildi.

II Osmanın əsas məqsədi orduda intizamı bərpa etmək və Yeniçəri ocağını əvvəlki dövrlərdəki hərbi gücünə qaytarmaq idi. Lakin bu cəhdlər əks nəticə verdi. Hökmdarın islahat niyyətləri hərbi təbəqə tərəfindən təhdid kimi qəbul olundu. Onun Həcc ziyarəti bəhanəsi ilə Anadoluya gedərək yeni ordu toplamaq və Yeniçəri ocağını ləğv etmək niyyəti barədə yayılan şayiələr vəziyyəti daha da gərginləşdirdi (Emecen, 2024, s. 16).

Bu şəraitdə həm rüşvət və imtiyaz sistemindən faydalanan üləma təbəqəsi, həm də mövqelərini itirməkdən qorxan Yeniçəri əyanları birləşərək açıq üsyana qalxdılar. Bu hadisə Osmanlı tarixində ilk dəfə olaraq taxtda olan sultana qarşı təşkil olunmuş kütləvi çevriliş kimi dəyərləndirilir.

1622-ci ilin may ayında üsyançılar əvvəlcə hökmdarın ətrafında olan və onun siyasətinə təsir göstərdiyini düşündükləri paşaların edamını tələb etdilər. II Osman gəncliyinin və təcrübəsizliyinin təsiri ilə bu tələbləri rədd etdi və vəziyyətin ciddiliyini yetərincə qiymətləndirə bilmədi. Nəticədə üsyan sürətlə böyüyərək saraya da sıçradı. 1622-ci il mayın 19-da Yeniçəri dəstələri saraya hücum edərək idarəni ələ keçirdilər və II Osmanın əmisi I Mustafanı ikinci dəfə Osmanlı taxtına çıxardılar (Kortantamer, 1993, s. 92).

Cəmi on səkkiz yaşında olan Gənc Osman isə qiyamçılar tərəfindən xalqın gözü qarşısında təhqir olunaraq edam edildi. Onun ölümü yalnız bir gənc hökmdarın faciəsi deyil, eyni zamanda Osmanlı dövlət sistemindəki dərin böhranın, islahatlara qarşı köhnə qüvvələrin müqavimətinin və saray-ordu münasibətlərindəki gərginliyin simvoluna çevrildi.

II Osmanın ədəbiyyata marağı məlum idi. O, “Farisi” təxəllüsü ilə şeirlər yazırdı. Hətta onun 119 şeirdən ibarət balaca divanı var (Erdemir, 2018, s. 171). Nəzərə alsaq ki, 18 yaşında vəfat edib bu səbəbdən şeirlərin dili sadədir.

Ətayi həm yaradıcılıq, həm də mənəvi baxımdan II Osmanın pənahında olan sənətkarlardandır. Şairin, dövrün siyasi və mədəni həyatında fəal mövqe tutması onun əsərlərində açıq şəkildə əks olunur.

Ətayi “Saqinamə” məsnəvisini həsr etməyi düşündüyü II Osmanın Balkanlardan keçərək Lehistan səfərinə çıxması hadisəsinə, əsərin ümumi həcmi nəzərə alındıqda, nəzərəçarpacaq dərəcədə geniş yer ayırmışdır. Şairin bu hadisəni ətraflı şəkildə təqdim etməsi təsadüfi deyil, əksinə onun həm tarixi proseslərə həssas yanaşmasını, həm də səfərin siyasi əhəmiyyətini dərindən dərk etdiyini göstərir (Kuzubaş, 2009, s. 42). Bundan əlavə, məsnəvidə Ətayi, hökmdarı ədalətli, cəsarətli və yeniliyə açıq bir şəxsiyyət kimi də təqdim edir. Əsərin poetik strukturu və mədhiyyə üslubu, Ətayinin

II Osmanın gənc yaşına baxmayaraq, elmə və ədəbiyyata yüksək marağı xüsusi olaraq vurğulandığını göstərir.

Lakin II Osman 1622-ci ildə Yeniçəri üsyanı nəticəsində taxtdan salınaraq vəhçicəsinə öldürülməsi, Ətayinin yaradıcılığında dərin iz buraxmışdır. Hökmdarın faciəvi aqibəti onun üçün təkcə bir himayədar itkisi deyil, həm də Osmanlı dövlətində ədalətin və mənəviyyatın sarsılması kimi qəbul edilmişdir. Bu səbəbdən Ətayi, dövrün siyasi təzyiqlərinə baxmayaraq, yeddi bəndlik mərsiyə yazaraq II Osmanın xatirəsini anmışdır.

Məlumdur ki, XVII əsr Osmanlı ədəbiyyatında hökmdarlara mərsiyə yazmaq geniş yayılmış ənənə idi. Lakin II Osmanın ölümü siyasi baxımdan son dərəcə həssas hadisə olduğundan, nə tarixçilər, nə də şairlər bu mövzuya toxunmağa cəsarət etməmişdilər. Belə bir şəraitdə Ətayinin mərsiyə yazması onun ədəbi və mənəvi cəsarətinin, həm də siyasi şüurunun bariz nümunəsidir. Şairin bu addımı yalnız bir şəxsə mərhəmət ifadəsi deyil, həm də ədalətsizliyə və zülmə qarşı mənəvi etiraz forması kimi dəyərləndirilə bilər.

Ətayinin mərsiyəsində II Osmanın ölümünə tənha, lakin dərin kədər və ədalət motivləri hakimdir. Şair, hökmdarın faciəsini bəşəri ədalətsizlik aktı kimi təqdim edir və onu simvolik şəkildə zülm və xəyanət qurbanı kimi təsvir edir. Əsərin ilk iki beyti bu baxımdan həm poetik gözəlliyi, həm də mənəvi yükü ilə fərqlənir:

**Ey nakş-bend-i kârgeh-i câh-ı bî-direng**

**Lâyık mı sâde dillere bu gûne gûne reng**

**Senden bilür konılsa kimüñ sâgarına zehr**

**Senden tutar tokunsa kimüñ ayagına seng.**

(Karaköse, 2017, s. 127)

*(Ey səbirsiz yüksək rütbəli rəssam, belə rənglər sadə qəlblərə layiqdirmi? Kimin qədəhində zəhər olsa, səndən bilir, kimin ayağına daş dəysə, səndən bilir)*

Şeirdə yalnız hökmdarın ölümünə duyulan kədər deyil, həm də bu faciəyə gətirib çıxaran ədalətsiz və ziddiyyətli siyasi münasibətlərə qarşı mənəvi etiraz ifadə olunur. Şair dövrün ziddiyyətlərini realist şəkildə qələmə alaraq göstərir ki, günahkarların çoxu öz məsuliyyətlərini gizlətmək məqsədilə bütün günahları II Osmanın üzərinə yıxmışdılar.

Ətayi mərsiyəsində açıq şəkildə II Osmanın şəxsiyyətini müdafiə edir, onun ideallarını və islahat cəhdlərini ədalətli hökmdarın fəaliyyəti kimi dəyərləndirir. Şairin bu mövqeyi dövrün siyasi

şəraitində olduqca cəsarətli idi, çünki II Osmanın faciəvi ölümü saray tərəfindən "sükutla qarşılanmalı" hadisə kimi təqdim edilirdi.

Ətayi burada Osmanlı taxt varisliyində I Əhmədin dövründə tətbiq edilən "Əkbər və Ərşad" prinsipinə münasibətini bildirir. Ətayi bu sistemi ədalətsiz və təbii varislik qaydasına zidd hesab edirdi. Onun fikrincə, bu sistem nəticəsində I Mustafa əsassız şəkildə taxta çıxarılmış, gənc və bacarıqlı II Osman isə haqsız yerə taxtdan uzaqlaşdırılmışdır.

Mərsiyənin son beytlərində Ətayi açıq şəkildə II Osmanı Osmanlı sülaləsinin on beşinci sultanı olduğunu qeyd etməklə, I Mustafanı hökmdar kimi qəbul etmədiyini nümayiş etdirir. Şair bu bəyanatı həm də II Osmanın qanuni varisliyini təsdiq edir.

Onun poetik səsi, ədəbiyyat vasitəsilə dövrün mənəvi və siyasi böhranına verilmiş ən dərin və cəsarətli cavablardan biri kimi dəyərləndirilə bilər.

**Osmân Han ki düşmene Hayder hücûm idüp**

**Oldı şehîd dest-i kazâda Ömer gibi**

**Osmaniyâna olmuş idi onbeşinci Ģâh**

**Ahşamladı bu şeb meh-i pür-nûr u fer gibi**.

(Karaköse, 2017, s. 128)

*(Düşmənə hücum edib Ömər kimi şəhid oldu. Osmanlının on beşinci padişahı idi. Bu gecə nur dolu və işıqlı yatacaq)*

Ətayinin yaradıcılığında II Osmanın taxtdan endirilməsindən sonrakı illər dərin mənəvi və siyasi böhran dövrü kimi təsvir olunur. O, bu mərhələni "fetrəti Osmani" adlandırır və "Hədayiqül-həqaiq fi-təkmilətiş-Şəqayiq" adlı əsərində bu anlayışı xüsusi termin kimi işlədərək, imperiyanın idarəçilik və əxlaqi dəyərlər sistemindəki dağılmanı ifadə edir (Donuk, 2017, s. 1707). "Fetrət" anlayışı burada yalnız siyasi qarşılığı deyil, həm də mənəvi fəsad və sosial tənəzzülü bildirir.

"Söhbətül- Əbkar" məsnəvisində yer alan bədii səhnələr, əslində, konkret tarixi hadisələrin poetik təzahürüdür. Ətayi dolayısı ilə bildirir ki, dövlətin zəifləməsi xarici qüvvələrin deyil, daxili rüşvət, ədalətsizlik və mənəvi süqutun nəticəsidir. O, elm və təhsilin dəyərdən düşməsini, ləyaqət əvəzinə sərvətin və mənsəb düşkünlüyünün önə keçməsini Osmanlı cəmiyyətinin "ruhi xəstəliyi" kimi qələmə alır.

**Mürteşîye vere Hak derd u belâ**

**Eyleye iki cihânda rüsvâ**

**Oldı âlemde garazla rüşvet**

**Kelef-i çehre-i dîn ü devlet.**

(Yelten, 2017, s. 84)

*(Allah rüşvət yeyənə dərd-bəla versin, iki cahanda rüsvay eləsin. Din və dövlətin üzqarası məqsədyönlü rüşvət dünyada baş alıb )*

**IV MURAD (1623-1640)**

Osmanlı imperiyasının XVII əsrdəki siyasi tarixi tədqiq edildikdə, IV Muradın adı əsasən mərkəzi hakimiyyətin bərpası və dövlət nizamının möhkəmləndirilməsi ilə bağlı hadisələrlə yanaşı çəkilir. O, Osmanlı tarixində həm qətiyyətli idarəçi, həm də mənəvi və ictimai islahatların təşəbbüskarı kimi tanınır.

IV Murad uşaq yaşlarında taxta çıxmış və dövlət idarəçiliyi bir müddət anası Kösəm Sultanın nəzarəti altında həyata keçirilmişdir. Kösəm Sultan Osmanlı sarayının ən nüfuzlu qadın fiqurlarından biri olaraq, dövlətin siyasi həyatında mühüm rol oynamış, xüsusilə “qadınlar səltənəti” adlandırılan dövrdə saray siyasətinə yön verən şəxsiyyət kimi tarixə düşmüşdür (Emecen, 2024, s. 25).

XVII əsr ümumilikdə Osmanlı dövlətinin zəifləmə və tənəzzül meyillərinin gücləndiyi mərhələ hesab olunur. IV Murad hakimiyyətə gəldiyi zaman imperiyanın həm siyasi, həm də sosial strukturu ciddi böhran içində idi. Bu böhranın yaranmasında bir neçə əsas amil mühüm rol oynamışdır:

- Saray daxilindəki rüşvət və xəyanət hadisələri
- Ənənəvi sancaq sisteminin ləğvi və bunun nəticəsində təcrübəli şahzadələrin idarəçilikdən uzaqlaşdırılması
- Qəfəs sisteminin tətbiqi nəticəsində şahzadələrin siyasi təcrübə qazanmadan taxta çıxması
- Saray qadınlarının dövlət işlərində həddindən artıq təsir etməsi
- Uzun sürən müharibələr və maliyyə böhranı
- Vergilərin toplanmasında nizamsızlıq
- Habelə yeniçəri üsyanları və hərbi nizamın korlanması

Bütün bu faktorlar Osmanlı idarəçiliyini dərin sarsıntıya düçar etmişdir. IV Murad bu vəziyyəti dəyişdirmək məqsədilə dövlətin daxili sabitliyi bərpa etməyə yönəlmiş islahatlar proqramı həyata keçirməyə çalışdı.

Onun siyasətinin əsas məqsədlərindən biri ictimai-mənəvi dəyərlərin bərpası idi. IV Murad İslam dininin və dövlət əxlaqının qorunması ideyasını önə çəkərək, xüsusilə spritli içki, tütün və əxlaqi özbaşınalıq kimi hallar əleyhinə sərt qanunlar tətbiq etdi. O, bu qadağaları sadəcə dini göstəriş kimi deyil, dövlət nizamını və ictimai asayişi bərpa etməyin vasitəsi kimi görürdü (Gül, 2006, s. 43).

Təəccüblüdür ki, bəzi tarixçilərin yazdığına görə, IV Murad özü içkiyə aludəli şəxs olsa da, bu sahədə amansız və prinsipial qadağalar tətbiq etmiş, fərdi zəifliyinə baxmayaraq, dövlətin mənəvi nizamı naminə şəxsi həyatında sərt davranış sərgiləmişdir. Bu, onun idarəçilik xarakterindəki paradoksal, lakin ideoloji baxımdan ardıcıl və dövlətçi mövqeyi nümayiş etdirir.

IV Murad həmçinin dövlətin maliyyə və iqtisadi strukturlarını təkmilləşdirmək məqsədilə müxtəlif islahatlar həyata keçirmişdir. Bu tədbirlər imperyanın maliyyə dayanıqlığını artırmaq və daxili stabilliyi bərpa etmək niyyətini əks etdirir. O, Osmanlı tarixində sonuncu müharibəyə gedən və bu müharibədən uğurla qayıdan sultan kimi də tanınır. Lakin IV Murad bütün bu qanunvericilik və inzibati tədbirlərə baxmayaraq, daxili çəkişmələr və saray fitnələri nəticəsində imperiyanı tam olaraq bərpa edə bilməmişdir. O, 9 fevral 1640-cı ildə, təqribən 27-28 yaşlarında vəfat etmişdir (Gül, 2006, s. 66).

Bütün bunlara baxmayaraq, IV Murad sənət, ədəbiyyat, elm və incəsənətə dəyər verən hökmdar idi. Onun hakimiyyəti Ətayinin yaradıcılığı üçün məhsuldar dövr təşkil etmişdir. Şair bu illərdə bir neçə əsərində IV Murada mədhiyyə yazmış və onun hərbi bacarıqlarını, sərkərdərliyini vurğulamışdır. Məsələn, "Nəfhətül-Əsrar" və "Söhbətül-Əbkar" məsnəvilərində IV Murad və Şeyxülislam Yəhya Əfəndi yüksək qiymətləndirilmiş, onların dövlət və mənəvi işlərdəki rolu təriflənmişdir.

1627-ci ildə tamamlanmış "Həft xan" əsəri də IV Murada ithaf olunmuşdur. Ətayinin bu məsnəvisində həm IV Murad, həm də Əxizadə Hüseyn Əfəndi mədh edilmiş, onların dövlət idarəçiliyindəki və mənəvi nüfuzdakı üstünlükləri poetik dil vasitəsilə ön plana çıxarılmışdır.

**Yani osmanlınun ser-efrazı**

**Han Murad ibn-i Ahmed-i Gazi**

(Karacan, 1974, s. 131)

*(Osmanlının yüksək təbəqəli başçısı Əhməd qazinin oğlu Murad xan)*

Ətayi "Həft xan" əsərində IV Muradın hakimiyyəti anasından təhvil aldıqdan sonra yavaş-yavaş ölkənin vəziyyətinin yaxşılaşdığını vurğulayır:

**Terk edüp halka cevr ü alamın**

**Gide gide unıtdurur namın.**

(Karacan, 1974, s. 133)

*(Xalqın yaşadığı çətinliklərin yavaş-yavaş adını belə unutdurdu )*

**Şenlik oldı harabe-zar-ı gumum**

**Ferah-abada döndi mülket-i Rum.**

(Karacan, 1974, s. 135)

*(Kədərlərin yerini şənliklər aldı, Rum (Türkiyə) ürəkaçan ölkəyə çevrildi)*

Şair "Həft xan" məsnəvisində IV Muradın tərifini tamamladıqdan sonra diqqətini Əxizadə Hüseyn Əfəndinin şəxsiyyətinə yönəldir. Şair onu dövlətin elm və din sahəsindəki nüfuzlu simalarından biri kimi mədh edir. Lakin bu tərif hissəsində Ətayi sadəcə mədhiyyə ilə kifayətlənmir, o, öz dövrünün sosial və mənəvi problemlərinə işarə edən incə tənqidi motivlər də əlavə edir.

Ətayi Hüseyn Əfəndiyə müraciət edərək dövlətin iç üzündəki xətalardan gileylənir. Onun poetik dilində bu giley bəzən açıq, bəzən isə simvolik şəkildə ifadə olunur. Şairin sözlərinə görə, rüşvət artıq cəmiyyətin bütün təbəqlərinə sirayət etmiş, elmi bilik və ədalət prinsipləri isə dəyərdən düşmüşdür. Ədalət, elm və mənəviyyatın zəifləməsi, onun fikrincə, dövlətin tənəzzülünün əsas səbəblərindəndir.

Bu hissədə Ətayinin siyasi realizmini göstərir. O, IV Muradın güclü idarəçiliyini və Hüseyn Əfəndinin elmə xidmətini yüksək qiymətləndirərkən, eyni zamanda dövrün sosial təbəqələri arasında yaranmış ədalətsiz fərqləri və korrupsiyanın yayılmasını açıq şəkildə dilə gətirir:

**Alışup mürteşi ile raşi**

**Arada ehl-ilm idi naşi**

**Mansını ol ki rayegan ister**

**Derdi ömrüm ana zeman ister**.

(Karacan, 1974, s. 138)

*(Rüşvət verən və alan bir-birlərinə alışmışlardı (yəni rahatlıqla işlərini görürdülər), arada elm əhli heç sayılırdı. Əgər bir şəxs vəzifəni rüşvətsiz istəsəydi, ona deyərlərdi ki, "ömrüm o işə zaman lazımdı").*

Ətayi "Həft xan" məsnəvisində Əxizadə Hüseyn Əfəndini böyük hörmət və rəğbətlə yad edir. Hüseyn Əfəndi yalnız elm və din sahəsindəki biliyi ilə deyil, həm də mənəvi bütövlüyü və ədalətə sadiqliyi ilə seçilən şəxsiyyət kimi təqdim olunur. Lakin məlum olduğu kimi, Əxizadə Hüseyn Əfəndi Osmanlı tarixində boğdurularaq edam edilən ilk şeyxülislam olmuşdur (Ansiklopedisi T. d., 1977, s. 52).

Ətayi bu hadisəni "Həft xan" əsərində simvolik şəkildə qələmə alaraq, hakimiyyətlə elm və mənəviyyatın toqquşmasını poetik formada təsvir edir. O, Hüseyn Əfəndinin IV Muradın şahidi və mənəvi dayağı olduğunu vurğulayaraq, bu münasibətin sonradan faciəvi sonluqla nəticələnməsini həm insani, həm də ədəbi baxımdan dərindən hiss etdirir.

Şair burada bir tərəfdən Hüseyn Əfəndinin şəxsiyyətinə hörmətini ifadə edir, digər tərəfdən isə dövrünün hakimiyyət münasibətlərinə və mənəvi aşınmasına dolayı, lakin açıq mənəvi tənqid yönəldir.

**Himmet-i şaha şahid-i adil**

**Sadr-ı sencide daver-i kamil**.

(Karacan, 1974, s. 135)

*(Kamil hakim olan o səncidə sədr, padşahın idarəsinə adil şahiddir.)*

Əxizadə Hüseyn Əfəndinin ölümü Osmanlı siyasi və dini tarixində mühüm dönüş nöqtələrindən biri hesab olunur.

Hüseyn Əfəndini ölümə aparan proseslər IV Muradın öz hakimiyyətini tam şəkildə ələ aldığı dövrdə baş vermişdir. Sultan gənc yaşlarından etibarən anası Kösəm Sultanın qəyyumluğuna son qoyaraq, idarəçiliyi öz əlinə almağa qərar vermişdir. Məhz bu mərhələdə dövlət daxilində siyasi nüfuz bölgüsü və səlahiyyət mübarizəsi kəskinləşmişdi.

Əxizadə Hüseyn Əfəndinin mövqeyi bu mübarizədə həlledici rol oynamışdır. Tarixi mənbələrə görə, o, IV Muradın qardaşlarını öldürməyəcəyinə ictimaiyyət qarşısında şahidlik etmiş, bu bəyanatla sultanın iradəsini açıq şəkildə tapdaladığı düşünülmüşdür. Onun bu çıxışı xalq və əsgərlər arasında sultanın humanist və ədalətli obrazını gücləndirsə də, hakimiyyətin mütləqliyinə xələl gətirən addım kimi dəyərləndirilmiş və sultanın narazılığına səbəb olmuşdur. *Sultan IV. Murad'ın bunu, asilere karşı şehzadelere, Recep Paşa ile kefil olduğundan beri duyduğu kızgınlıktan dolayı yaptığı rivayet edilmektedir* (Gül, 2006, s. 48).

IV Murad bu hadisəni uzun müddət unutmamış, hadisəni "şahın iradəsinə qarşı çıxış" kimi qəbul etmişdir. Sonradan baş verən İznik qazisinin edamı məsələsində Hüseyn Əfəndinin sultana açıq şəkildə etiraz etməsi bu narazılığı daha da dərinləşdirmişdir. Nəticədə sultanla şeyxülislam arasında münasibətlər gərgin müstəviyə keçmiş, 1634-cü ildə Hüseyn Əfəndi oğlu ilə birlikdə ən ağır cəza növü olan sürgünə məhkum edilmişdir (Gül, 2006, s. 26).

Lakin IV Muradın qəzəbi bununla bitməmiş, sürgün üçün yola salındıqları zaman şahın əmri ilə gəmi dayandırılmış və Əxizadə Hüseyn Əfəndi boğdurularaq edam edilmişdir. Onun cəsədi

tərəfdarlarının tapa bilməməsi üçün gizli şəkildə dəfn edilmişdir. Bu hadisə Osmanlı tarixində boğdurularaq öldürülən ilk şeyxülislam kimi qeydə alınmış və dövrün siyasi sərtliyinin göstəricilərindən biri olmuşdur.

Bu faciə baş verən zaman Ətayi artıq ömrünün son illərini yaşayırdı. Lakin Hüseyn Əfəndinin taleyi və onun sultanla münasibətlərinin faciəvi sonluğu Ətayinin "Həft xan" əsərində öz bədii əksini tapmışdır. Şair bu hadisəni hakimiyyətlə mənəviyyatın toqquşması kimi görmüş, Hüseyn Əfəndinin şəxsində ədalət və elm uğrunda mübarizə aparan, lakin siyasi zorakılıq qarşısında məğlub olan bir ideal obraz yaratmışdır.

## Nəticə / Conclusion

Nəvizadə Ətayi Osmanlı imperiyasının müxtəlif şəhərlərində qazi kimi fəaliyyət göstərmiş, bu da onun imperiyanın fərqli bölgələrindəki ictimai, siyasi və mənəvi vəziyyətini yaxından müşahidə etməsinə şərait yaratmışdır. Bu təcrübələr sayəsində şair dövlət idarəçiliyindəki nizamsızlıqları, cəmiyyətin mənəvi aşınmasını və sosial ədalətsizliyi daha dərindən dərk etmişdir. Ətayi öz yaradıcılığında yalnız bədii-estetik gözəlliyi ön plana çıxarmamış, eyni zamanda yaşadığı dövrün reallıqlarını əks etdirməyə çalışmışdır. Bu baxımdan o, xalqın həyat tərzini, cəhalətə sürüklənmiş kütləni, rüşvətə bulaşmış idarəçilik sistemini tənqidi prizmadan təsvir etmişdir.

Şairin məsnəviləri yalnız ədəbi xüsusiyyətləri ilə deyil, həm də tarixi-sosioloji dəyəri ilə seçilir. Ətayi əsərlərində hadisələri yüksək bədii ustalıqla canlandırmaqla yanaşı, XVII əsr Osmanlı cəmiyyətinin siyasi, sosial və mənəvi portretini də təqdim etmişdir. Bu xüsusiyyət onun yaradıcılığını klassik Osmanlı ədəbiyyatında yalnız poetik nümunə kimi deyil, həm də dövrün ictimai düşüncəsini və idarəetmə sistemini öyrənmək baxımından mühüm tarixi-mədəni mənbə kimi qiymətləndirməyə əsas verir.

## Ədəbiyyat / References


Köprülü, M. (1980). *Türk Edebiyatı Tarihi*. İstanbul: Ötüken Basım.

Uzunçarşılı, H. İ. (2011). *Büyük Osmanlı Tarihi [ 4.Cilt, 6.Baskı] - XVI. Yüzyıl Ortalarından XVII. Yüzyıl Sonuna Kadar.* Ankara: Türk tarhi kurumu Yayınları.

Türk Ansiklopedisi. (1983). *Türk Ansiklopedisi* (C. 32). Ankara: Milli Eğitim Basımevi.

Kırkkılıç. H. A. (2015). *Murâdî Dîvânı (İnceleme Metin). Sultan Üçüncü Murad.* İstanbul: Türkiye Yazma Eserler Kurumu Başkanlığı.

İsen, M. (2018). *XVI. Yüzyıl Türk edebiyatı*. Eskişehir: Anadolu Üniversitesi Yayınları.

Kortantamer, T. (1993). XVII yüzyıl şairi Nevizade Atayinin Hamsesinde Osmanlı İmperatorluğunun görüntüsü. *Eski Türk Edebiyyatı Makaleler*, 1, 61-105. Ankara: Akçağ Yayınları.

Demirci, T. (2019). Osmanlı Tarih Kitaplarında III. Mehmed`in Cülusunda Öldürülen On Dokkuz Şehzade meselesi. Sosyal ve Kültürel Araştırmalar Dergisi, 5(0), 147-167.

İnbaşı, M. (2022). *Sultan III. Mehmed Dönemi ve Bursa*. Bursa: Gaye kitabevi.

Kuzubaş, M. (2005). *Nev'î-zâde, Atâyî. Nefhatü'l-Ezhâr*. Samsun: Deniz Kültür Yayınları

Kayaalp, İ. (2019). *Bahti Divanı*. Ankara: T.C Kültür ve Turizm Bakanlığı Kütüphaneler ve Yayımlar genel Müdürlüğü.

Yaşaroğlu, H. (2013). Osmanlı'da bir darbe ve tahlili: Genç Osman örneği. *Turkish Studies - International Periodical For The Languages, Literature and History of Turkish or Turkic*, 8(7), 705-732. Ankara.

Gül, İ. (2006). *Osmanlı devletinde IV. Murad dönemi Yeniçeri isyanları* (1623–1640) (Yüksek lisans tezi). Sakarya: T.C. Sakarya Üniversitesi Sosyal Bilimler Enstitüsü

Yelten, M. (2017). *Nev'î-zâde Atâyî, Sohbetü'l-Ebkâr*. Ankara: T.C Kültür ve Turizm Bakanlığı Kütüphaneler ve Yayımlar genel Müdürlüğü.

Emecen, M. (2024). I. Ahmed'in Sultan Oğulları: II. Osman ve IV. Murad: *Prof. DR. Yusuf Oğuzoğlu anısına. Sultan I. Mustafa Sultan II. Osman Sultan IV. Murad Dönemleri ve Bursa*, Gaye Kitabevi. 9-41. Bursa.

Erdemir, A. (2018). Sultan II. Osman (Farisi) ve Divançesi. *Divan Edebiyatı Araştırmaları Dergisi*, 21, 161-234. İstanbul.

Kuzubaş, M. (2009). *Nev'î-zâde, Atâyî. Sâkînâme*. İstanbul: Etüt yayınları.

Karaköse, S. (2017). *Nev'î-zâde Atâyî, Nev'î-zâde Atâyî Dîvânı*. Ankara: T.C Kültür ve Turizm Bakanlığı Kütüphaneler ve Yayımlar Genel Müdürlüğü.

Donuk, S. (2017). *Nev'îzâde Atâyî Hadâikul-hakāik fî Tekmiletiş-şakāik* (C.2.). İstanbul: Türkiye Yazma Eserler Kurumu Başkanlığı.

Karacan, T. (1974). *Nevizade Atayi Heft-Han Mesnevisi (İnceleme- Metin)*. Ankara: Sevinç Matbaası.

Türk dili ve edebiyatı Ansiklopedisi. (1977). *Türk Dili ve Edebiyatı Ansiklopedisi (Devirler / İsimler / İsimler / Eserler / Terminler).* (C. 1.) İstanbul: Dergah Yayınları.